# Nakam sənətkar



**Behruz (Şamil) Şirelibey oğlu Kengerli, 1892-ci ilin 28 fevral tarixinde Naxçıvan şeherindeki "Çığatay mehellesi"nde rus çar memuru ailesinde doğulmuşdur. Atası Şirelibey Murtuzbey oğlu Kengerli 1864-cü ilin 11 mart tarixinde Naxçıvanda ziyalı ailesinde anadan olmuşdur.**

Şirəlibəy Naxçıvandakı qəza məktəbini bitirdikdən sonra 1878-ci ildə Tiflis gimnaziyasına daxil olmuş və 1883-cü ilin 8 iyun tarixində gimnaziyanın 6-cı kursunu bitirmişdir. O, 1883-1886-cı illərdə hərbi qulluqda olmuşdur. Şirəlibəy hərbi xidmətdə "Əla atıcılığa görə" döş nişanı, 2-ci dərəcəli zabit rütbəsi almışdır.

Şirəlibəy 1897-ci ildən Naxçıvana qayıdaraq Ali Məhkəmədə (Mirovoysud) mülki qulluqçu (məhkəmə katibinin dilmancı) vəzifəsinə işə girmişdir. O, 1900-cu ilin 12 mart tarixindən ərizəsinə görə işdən azad olmuş və Naxçıvan qəzasında ata-babasından qalmış Kültəpə ilə Teyvaz kəndlərində mülkədarlıq etmişdir. Bir müddət həmin kəndlərin torpaq ərazilərindəki meyvə bağlarının gəliri ilə ailəsini dolandırmışdır. Mülkədar Şirəlibəy Kəngərli 1908-ci ilin 17 noyabr tarixindən Naxçıvan qəza polis (jandarma) idarəsində tərcüməçi məmur vəzifəsinə işə götürülmüşdür. Polis məmuru Şirəlibəy 1911-ci ilin noyabr ayınadək həmin vəzifədə işləmişdir. Bundan sonra yenidən ərizəsi əsasında işdən çıxan Şirəlibəy mülkədar kimi kəndlilərin əkib-becərdikləri təsərrüfatdan gələn gəlir hesabına yaşayıb ailəsini dolandırmışdır (Bax; F. Cəfərov "B. Kəngərli ömrü", "Şərq qapısı" qəzeti, 2002-ci il № 163).

Bəhruz anadan olanda anası Əzizə xanım uşaq üstə keçinmiş, çağasını əri Şirəlibəyə tapşıraraq dünya ilə vidalaşmışdır.

Körpə Bəhruzun taleyi uğursuzluqla başlasa da ana nənəsi Xatun xanım 12 il sərtəmam uşağa nəvaziş göstərərək dayəlik etmişdir. Xatun nənə Bəhruza ana babası Şamilin adını verdiyindən iki adla çağrılırdı. Nənəsinin qohumu Molla Talıbın məsləhəti ilə Bəhruzu yeddi yaşında məhəllədəki məscidə oxumağa qoyurlar. Lakin Bəhruz tərslik edərək ilk gündən məscidə getmək istəmir. Bir gün atası hirslənərək yuxulu uşağı möhkəm kötəkləyir. Qorxudan Bəhruzun qulaqları kar, dili isə lal olaraq xəstəlik tapır.

Şirəlibəy peşmançılıq çəkərək bir ay Teyvaz kəndindəki ağalıq evində qalır.

Şikəst uşağa Molla Talıb nə qədər əlac edib, dua yazsa da xeyri olmur. Bir neçə il gəlib keçir. Şirəlibəy feldşer Mirzə Əli ilə məsləhətləşərək Bəhruzu el adətinə görə sünnət etdirmək istəyir. "Xıdır" bayramı ərəfəsində Şirəlibəy evlərinə yaxın qohumlarını dəvət edir..

Bəhruz kirvəsi feldşer Mirzə Əlinin qucağında oturanda, dəllək Orucəlinin əlindəki iti ülgücü görüb çığıraraq nənəsini çağırır.

Bəhruzun çığırtısına qonaqlar gülüşsə də Molla Talıb əllərini göyə qaldıraraq uşağın dilinin açılmasına dua edir...

Bəhruzun dili açılaraq bir qulağı da eşidir. 1904-cü ildə uşağın 12 yaşı tamam olanda Şirəlibəy Bəhruzu şəhərdəki "Tərbiyə" (Rus-tatar) məktəbinə oxumağa qoyur.

1905-ci ilin "Novruz bayramı" günündə atası qonşu qızı Şirinay Vəzirova ilə evlənərək məsciddə kəbin kəsdirib Bəhruza ana gətirir.

Şirəlibəyin arvadı Şirinaydan əvvəlcə Tahirə, sonra isə Mənsurə adlı qızları doğulur.

1907-ci ildə Bəhruz "Tərbiyə" məktəbini on beş yaşında bitirir.

Bəhruzun sinif yoldaşları Əziz Şərif, Əli Qasımov, Həsən Əliyev, Seyhulla Kəngərli, Bəxtiyar Kəngərli, Abbas Qasımov, Əli Vəliyev, Ağa Vəzirov, Cəlal Vəzirov, Nəcəf Sultanov, Əli Xəlilov, İbrahim Nəsirbəyov, Cabbar Şeyxov, Həsən Qəmbərov və başqaları idi.

Qulağının biri eşitməyən kiçik Bəhruzun məktəb müəllimlərindən Məmmədhüseyn Novruzov, Varvara Krapivna, məktəb nəzarətçiləri Bəhram Naxçıvanski və Ələkbər Süleymanov uşağın bacarıqlı olmasını atasına bildirmiş, ondan şikayət etməmişlər. Lakin xəstə Bəhruz utanaraq məktəbli yoldaşlarından ayrı gəzib onlarla oynamaq istəmirdi. O, atasının abunə yazıldığı "Molla Nəsrəddin" jurnalındakı rəngli karikaturaları ağ kağıza bacarıqla köçürürdü. Bundan fərəhlənən Şirəlibəy oğluna Tiflisdən boya dəsti ilə qələm, fırça və ağ kağız qovluğu alıb gətirtdirir. Bəhruz atasının aldığı qovluğu qoltuğuna vuraraq şəhər kənarında rəsmlər çəkir.

Naxçıvan teatrının yaradıcılarından olmuş ziyalı Eynulla bəy Sultanovun məsləhəti ilə Bəhruzu Tiflisdəki rəssamlıq məktəbinə oxumağa göndərirlər. 1910-cu ildə Bəhruz Tiflisdəki "Qafqaz İncəsənəti Təşviq Cəmiyyəti" nin nəzdindəki Boyakarlıq və heykəltəraşlıq məktəbində (1910-1915) oxuyur.

O, Tiflisdə oxuyarkən Eynulla bəyin vasitəsilə C. Məmmədquluzadənin redaktor olduğu "Molla Nəsrəddin" jurnalındakı rəssamlar Rolter və Şmerlinqlə tanış olur.

1914-cü ilin yayında Bəhruz Naxçıvanda ilk rəsm sərgisini açır. Həmin sərgiyə şəhərin tanınmış ziyalıları ilə bərabər Əkbər bəy Kəngərli qızı Nazlı ilə gəlir. Sərgidən razılıq edən ziyalılar "İqbal" qəzetində gənc rəssamın uğurlu sənətkarlığından xoş sözlər yazmışlar.

Bəhruz rəssamlıq məktəbini bitirdikdən sonra 1916 və 1920-ci illərdə əsərlərinin satış sərgisini açmağa nail olmuşdur. Həmin illərdə gənc rəssamın ailə vəziyyəti ağırlaşdığından, qazanc məqsədilə siyasi təşviqatla portret janrına həvəs göstərir... Naxçıvandakı M.F.Axundov adına Dram Teatrında işə götürülərək, tamaşalara tərtibat verib boş vaxtlarında rəsm dərnəyinə rəhbərlik edirdi.

Onun tamaşalara çəkdiyi tərtibat işləri Ə.Haqverdiyevin "Pəri cadu", M.F. Axundovun "Hacı Qara", C.Məmmədquluzadənin "Ölülər" və başqaları olmuşdur.

Bəhruz Kəngərlinin teatrda ictimai əsaslarla rəhbərlik etdiyi rəsm dərnəyinə istedadlı gənclərdən Adil Qarayev, Həsən Əliyev, Şamil Qazıyev, İdris Səlimov və başqaları cəlb olunmuşlar. 1921-ci ilin əvvəllərində Naxçıvanın fövqəladə komissarı Bahadur Vəlibəyovun təşəbbüsü ilə Bəhruzun əl işlərinə lotereya biletləri satılır. Komissar bütün bu işləri təşkil etməyi Qadınlar klubunun müdiri Cənnət Talıbzadəyə həvalə edir. Bəhruz lotereya biletlərindən gələn gəlirin bir hissəsinin pulunu ala bilmədiyi üçün komissar Əliheydər Qarayevə şikayət ərizəsi yazmalı olur. Qadınlar klubunun müdiri lotereya biletlərinin pulunu yığaraq, heç kimə bildirmədən Bakıya köçür. Komissar Ə.Qarayevin göstərişi ilə Bəhruz Kəngərlini Naxçıvan ölkə Xalq Maarif Komissarlığında 1 iyul 1921-ci il tarixdən rəsm şöbəsi müdiri vəzifəsinə təyin edirlər.

Lakin uzun sürən xəstəlikdən çətinlik çəkən Bəhruz Maarif Komissarlığında işə gedə bilmir. O, xəstəliyi ilə mübarizə apararaq üzərində işlədiyi "Naxçıvan çaparı" Məcidin portretini tamamlaya bilmir. Uzun müddət kirvəsi Mirzə Əli xəstə Bəhruzun müalicəsi ilə məşğul olsa da, taleyin hökmünə qalib gələ bilmir.

30 yaşlı nakam sənətkar uzun sürən vərəm xəstəliyindən dünyadan köçür. 1922-ci il 7 fevral tarixində Naxçıvanlı ziyalılar Azərbaycanın ilk realist rəssamı Bəhruz Şirəlibəy oğlu Kəngərlinin ruhu ilə vidalaşmağa gəlirlər.

Bəhruzun cənazəsini Mirzə Sidqinin məzarı yaxınlığında (əqrabalarının məzarları yanında) dəfn etmişlər...

1958-ci ildə Kəngərli soyundan olanlar bəraət almışlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri hörmətli V.Talıbovun təşəbbüsü ilə 15 fevral 2001-ci il tarixdə "Bəhruz Kəngərlinin adının əbədiləşdirilməsi haqqında" sərəncam verilmişdir. Bu münasibətlə B. Kəngərlinin məzarı yanında ayaqüstü heykəli ucaldılmış (heykəltəraş, əməkdar rəssam H. Əliyev), adına sərgi salonu ilə ev-muzeyi açılmışdır.

2002-ci ilin iyun ayından fəaliyyət göstərən muzeydə olan ümummilli lider H.Əliyev "Bəhruz Kəngərlinin əsərləri Azərbaycan dövlətinin milli sərvətidir" sözlərini demişdir.

Haliyyədə Bəhruz Kəngərlinin muzeyində 370 eksponat toplanaraq nümayiş etdirilir.

Bəhruz Kəngərlinin xatirəsi sənətsevərlərin qəlbində daima yaşayacaqdır. Məktəbli gənclər tez -tez muzeyə gələrək rəssamın əsərlərindən faydalanırlar.

• **Feyruz BAĞIROV**,

***Naxçıvan MR Mədəniyyət üzrə Elmi -Metodik Mərkəzin şöbə müdiri***